# COP29 Azərbaycan Əməliyyat Şirkəti akkreditasiya kartlarının əldə edilməsi ilə bağlı məlumat yayıb

COP29 Azərbaycan Əməliyyat Şirkəti akkreditasiya kartlarının nə vaxt və haradan əldə edilməsi ilə bağlı məlumat yayıb.

**AZƏRTAC məlumatı təqdim edir:**

**Mavi Zona:** COP29 çərçivəsində bütün rəsmi sessiyalar, iclaslar, paralel tədbirlər və mətbuat konfranslarının keçiriləcəyi COP29-un Mavi Zonasında media fəaliyyəti üçün iyulun 2-dən etibarən başlamış və yalnız UNFCCC-nin onlayn qeydiyyat sistemi üzərindən aparılan akkreditasiya prosesi oktyabrın 21-də yekunlaşıb.

Media əməkdaşları Mavi Zona üzrə akkreditasiya kartlarını cari il oktyabrın 28-dən etibarən səhər saat 08:00-dan axşam saat 18:00-a qədər tədbir məkanının əsas girişindəki qeydiyyat masalarından təhvil ala bilərlər. Akkreditasiya kartlarını əldə etmək üçün qeydiyyat masalarına UNFCCC qeydiyyatını təsdiq edən elektron məktubun surətini, eləcə də müraciət ərizəsində istifadə edilən fotoşəkilli şəxsiyyət vəsiqəsinin əslini təqdim etmək lazımdır.

Akkreditasiya kartları təhlükəsizlik məqsədləri üçün qeydiyyat masasından ərizəçinin özü tərəfindən mütləq tədbirdən öncə təhvil alınmalıdır.

Mavi Zona akkreditasiyası üzrə suallarınızı onlayn qeydiyyat hesabınız vasitəsilə və ya press@unfccc.int ünvanına yönləndirə bilərsiniz.

Yaşıl Zona: COP29 Sədrliyi tərəfindən təşkil və idarə olunan COP29 Yaşıl Zona üzrə media əməkdaşları üçün akkreditasiya prosesi oktyabrın 9-dan başlayıb. Oktyabrın 30-u saat 23:00-da (GMT+4) sona çatacaq akkreditasiya prosesi Yaşıl Zona üzrə xüsusi Media Akkreditasiya portalı üzərindən aparılır. Təsdiq məktubunu aldıqdan sonra sizin COP29 Yaşıl Zonada iştirakınız qeydiyyata alınacaq. Yaşıl Zonaya akkreditasiya kartını qeydiyyat zamanı istifadə etdiyiniz pasport və ya şəxsiyyət vəsiqəsini təqdim etməklə Milli Gimnastika Arenasında yerləşən Uniforma və Akkreditasiya Mərkəzindən (UDAC) əldə edə bilərsiniz.

Yaşıl Zona akkreditasiyası üzrə suallarınızı mediaaccreditation@cop29.az ünvanına yönləndirə bilərsiniz.

Qeyd edək ki, hər iki zona üzrə akkreditasiya kartları noyabrın 11-dən etibarən aktiv olacaq və bu tarixə qədər konfrans məkanına daxil olmaq qadağandır.

**1.Media əməkdaşları üçün COP29 zolaqlarına VAPP (avtomobillər üçün giriş və parklama kartı) nəzərdə tutulurmu?**

COP29 media nümayəndələrinin şəxsi və xidməti nəqliyyat vasitələrinə COP29 zolaqlarından xüsusi istifadə icazəsi və ya giriş və parklama kartları (VAPP) nəzərdə tutulmayıb. Həm media nümayəndələri, həm də ümumiyyətlə konfrans iştirakçıları üçün konfrans müddətində rahat nəqliyyatın təmin edilməsi üçün müvafiq nəqliyyat sxemi mövcud olacaq. Media nümayəndələri şəxsi, xidməti və ya ictimai nəqliyyat vasitələrindən istifadə edərək şəhərin müxtəlif hissələrində yerləşən 16 nəqliyyat qovşağına çata bilər, buradan xüsusi marşrutlu konfrans avtobuslarından istifadə etməklə isə xüsusi marşrutlu avtobuslar vasitəsilə konfrans məkanına gələ biləcək.

Nəqliyyatla bağlı asan naviqasiya üçün xüsusi olaraq hazırlanmış **Rəqəmsal Nəqliyyat Xəritəsi** media nümayəndələri və bütün digər konfrans iştirakçılarına konfrans məkanı, nəqliyyat qovşaqları, dayanacaqlar və qonaqlama yerlərini rahat şəkildə müyyənləşdirməyə və ən əlverişli nəqliyyat növünü seçməyə kömək edəcək. Naviqasiyanı asanlaşdıran bu rəqəmsal xəritə hava limanından qonaqlama və tədbir məkanlarına rahat səyahəti təmin edir.

**AZƏRTAC**
**2024, 25 oktyabr**